


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 64 (23.951)

*8 aprel 2022-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Aprelin 6-da Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə işçi nahar formasında görüşü olub. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel görüşün nəticəsinə dair bəyanat verib.

Avropa İttifaqı Şurasının Prezidenti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanı qəbul edib. Prezident Mişel təhlükəsiz, sabit, dinc və firavan Cənubi Qafqazın təşviq edilməsinə Avropa İttifaqının sadiq olduğunu bildirib.

Liderlər bu yaxınlarda baş vermiş gərginlikləri müzakirə ediblər və 2020-ci il 9-10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarına tam riayət edilməsinin zərurətini qeyd ediblər. Prezident Mişel həll olunmamış bütün humanitar məsələlərin tam və çevik həllinə ehtiyacın olduğunu, o cümlədən hələ də saxlanılmaqda olan şəxslərin azad edilməsi və itkin düşmüş şəxslərlə bağlı məsələnin hərtərəfli həllini vurğulayıb və Avropa İttifaqının bu işə dəstək olmağa hazır olduğunu bildirib. Hər iki ölkə arasında sərhədin delimitasiyası və demarkasiyası məqsədilə 2021-ci il 26 noyabr tarixli Soçi Bəyanatına müvafiq olaraq aprel ayının sonunadək Birgə Sərhəd Komissiyasının iclasının keçirilməsi ilə bağlı razılıq əldə olunub. Liderlər, həmçinin xüsusilə Ermənistan və Azərbaycan arasında və daha geniş mənada Cənubi Qafqazda kommunikasiya-bağlılıq infrastrukturunun bərpasını da müzakirə ediblər.

## Muxtar respublikada yeni texnologiyaların tətbiqi və əhatə dairəsi genişləndirilir

*Naxçıvan Muxtar Respublikasında həyata keçirilən sosial-iqtisadi islahatlar rabitə və yeni texnologiyalar sahəsinin inkişafına da əsaslı zəmin yaratmış, ən müasir texnologiyaların tətbiq edilməsi ilə telekommunikasiya xidmətlərinin çeşidinin və keyfiyyətinin artırılması istiqamətində ardıcıl tədbirlər görülmüşdür.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə yanvar ayının 14-də Şərur rayonunun Çərçiboğan kəndində yeni Rabitə Evi istifadəyə verilmiş, 672 nömrə tutumlu yeni nəsil Avtomat Telefon Stansiyası quraşdırılmışdır. 2022-ci ilin birinci rübündə muxtar respublikada əhaliyə rabitə və internet xidmətlərinin göstərilməsi uğurla davam etdirilmiş, 531 abonent yeni stasionar telefon xətti ilə, 1781 abonent ADSL (Asimmetrik Rəqəmsal Abunəçi Xətti) internetlə təmin olunmuşdur.

Muxtar respublikada fiber-optik telekommunikasiya xətlərinin çəkilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir. Optik şəbəkənin genişləndirilməsi evlərə də optik kabelin çəkilməsinə imkan vermiş, 2012-ci ilin avqust ayından etibarən Naxçıvan şəhərində həyata keçirilən "Evədək optika" layihəsi uğurla davam etdirilmişdir. GPON (Gigabyte Passive Optical Network-Qiqabit tutumlu Passiv Optik Şəbəkə) texnologiyası əsasında həyata keçirilən layihə çərçivəsində 3 ay ərzində 7 fərdi mənzilə fiber-optik xətlər çəkilmiş, zəruri avadanlıqlar quraşdırılmışdır. Optik şəbəkənin genişlənməsi əhalinin internetdən istifadə imkanlarını da xeyli artırmışdır. Bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, muxtar respublikaya daxil olan internetin sürəti də ilbəil artırılmışdır. Hazırda muxtar respublikanın bütün yaşayış məntəqələrində əhaliyə genişzolaqlı və simsiz internet xidmətləri göstərilir.

Cari ilin birinci rübü ərzində muxtar respublikada 100 dövlət qurumu, 9 hüquqi şəxs, 19 sahibkar və 7-si vətəndaş olmaqla, ümumilikdə, 135 elektron imza sertifikatı qanunvericilikdə nəzərdə tutulmuş qaydada hazırlanaraq aidiyyəti üzrə istifadəçilərə təqdim edilmişdir.

Qeyd olunanlarla yanaşı, nazirliyin aid mütəxəssislərinin iştirakı ilə rayon mərkəzlərində və kəndlərdə monitorinqlər aparılmış, istismar müddəti ərzində rabitə xətti və abunə qurğularında yaranmış nasazlıqlar aradan qaldırılmışdır.

Əhalinin genişzolaqlı internet xidmətləri ilə təmin olunması məqsədilə 2022-ci ilin birinci rübü ərzində Şərur, Şahbuz və Babək rayonlarının kəndlərində fəaliyyət göstərən avtomat telefon stansiyalarının internet tutumları artırılmışdır. Nəticə etibarilə, 1300-dən artıq istifadəçinin genişzolaqlı internet xidmətlərinə olan tələbatının ödənilməsinə imkan yaranmışdır. Gündəlik daxil olan müraciətlərə əsasən abonentlər yüksəksürətli ADSL (Asimmetrik rəqəmsal abunəçi xətti) internetlə təmin olunurlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanına əsasən Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən bir sıra qurumlara elektron poçt ünvanları və domen adları verilmiş, həmin təşkilatların internet səhifələri hazırlanaraq qlobal şəbəkədə yerləşdirilmişdir.

Həyata keçirilən tədbirlərin davamı olaraq nazirliyin proqramçıları tərəfindən hazırlanmış 8 qurumun rəsmi internet səhifələrinin 2022-ci ilin ötən dövrü ərzində təqdimatları keçirilmişdir.

Belə ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin *(nazirlerkabineti.nmr.az)*, Kənd Təsərrüfatı *(ktn.nakhchivan.az)* və Ekologiya və Təbii Sərvətlər *(ekologiya.nakhchivan.az)* nazirliklərinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin *(shxcdx.nakhchivan.az)*, Mərkəzi Seçki Komissiyasının *(msk.nakhchivan.az)*, Rəssamlar Birliyinin *(nrb.nakhchivan.az)*, Naxçıvan Biznes Mərkəzinin *(nbm.nakhchivan.az)* və "Şərq qapısı" qəzetinin *(serqqapisi.az)* rəsmi internet səhifələri dizayn, quruluş və məzmun cəhətdən təkmilləşdirilmiş, elektron xidmətlərin həcmi genişləndirilməklə yeni bölmələr əlavə edilmişdir. Yeni saytlar həm funksionallıq, həm də məzmun cəhətdən əvvəlki versiyalar ilə müqayisədə daha da təkmilləşdirilmiş və yeni informasiyalarla zənginləşdirilmişdir. İstifadəçi rahatlığını təmin etmək üçün yeni saytlar müasir üslubda tərtib edilərək hər bir istifadəçinin kompüter, planşet və mobil telefonunun ekran ölçülərinə uyğun şəkildə hazırlanmışdır.





Nazirlik tərəfindən qeyd olunan dövrdə kadr hazırlığı da diqqət mərkəzində saxlanılmış, 2022-ci ilin iş planına əsasən Ordubad, Şahbuz, Culfa və Kəngərli Rayon Rabitə idarələrinin müvafiq peşə ixtisasına malik olmayan əməkdaşları ixtisasartırma kurslarına cəlb edilmişlər.

Bunlarla yanaşı, nazirliyin təşkilatçılığı ilə fevral ayı ərzində "Microsoft" Korporasiyasının Azərbaycan nümayəndəliyinin rəhbəri, Amerika Ticarət Palatasının Rəqəmsal Texnologiyalar və İnnovasiyalar Komitəsinin sədri, Azərbaycan Sahibkarlar Konfederasiyasının İnnovasiyalar və Rəqəmsal Həllər komissiyasının üzvü Qaçay Mirzəyev və "HUAWEİ Technologies Azerbaijan" Məhdud Məsuliyyətli Cəmiyyətinin icraçı məsul şəxsi Tural Zərbəliyev tərəfindən dünyanın qabaqcıl texnologiyaları, 5G texnologiyası, əşyaların interneti, süni intellekt haqqında "DEFSCOPE" Məhdud Məsuliyyətli Cəmiyyətinin təsisçisi və direktoru, Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən "Sirius Computer Solutions" şirkətinin aparıcı məsləhətçisi, "INSECO" İnformasiya Təhlükəsizliyi Təşkilatı İctimai Birliyinin həmtəsisçisi Vüsal Salmanlı tərəfindən isə "Proqramlaşdırma, irihəcmli verilənlər, maşın öyrənməsi və süni intellekt kimi sahələrdə biliklərin inkişaf etdirilməsi, informasiya təhlükəsizliyi üzrə maarifləndirmənin artırılması və kibertəhlükəsizlik risklərindən qorunma üsulları, banklarda informasiya sistemlərinin təhlükəsizliyinin təmin edilməsi və bank əməliyyatlarının aparılması zamanı zərərverici proqram təminatlarından müdafiə üsulları" mövzusunda təlimlər keçirilmişdir.

"Buta Global Enerji" şirkətinin radioölçmələr üzrə mühəndisi Ramazan Əliyev tərəfindən nazirliyin və "Naxçıvan Muxtar Respublikasının Radio-Televiziya Ötürücü Mərkəzi" publik hüquqi şəxsin aid əməkdaşlarına yeni nəsil telekommunikasiya avadanlıqlarının texniki göstəriciləri haqqında seminar keçirilmişdir.

Həmçinin Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində təşkil olunan kurslara, ümumilikdə, 121 qrup olmaqla, 278 dinləyici cəlb edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarının inkişafını səciyyələndirərək demişdir: ***"Bu gün muxtar respublikada informasiya-kommunikasiya texnologiyaları sahəsində böyük layihələr həyata keçirilir. Muxtar respublikada bütün telefon stansiyaları avtomatlaşdırılmış, fiber-optik kabellər çəkilmiş, yeni poçt şöbələri yaradılmış və digər tədbirlər həyata keçirilmişdir. Qısa zaman kəsiyində görülən işlər muxtar respublikanın informasiya blokadasından çıxmasına səbəb olmuşdur".***

Muxtar respublikada bundan sonra da informasiya texnologiyalarının inkişafı daim diqqət mərkəzində saxlanılacaq, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Operativ vergi nəzarəti diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli qurumları tərəfindən mart ayında muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqlər davam etdirilib, 33 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar olunub. Belə ki, operativ vergi nəzarəti tədbirləri zamanı 1 şəxsdə "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığortahaqqının ödənilməsi haqqında qəbz" alınmaması, 32 vergiödəyicisinin isə "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişindaşıma ilə məşğul olması faktları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Türkiyənin daha bir qabaqcıl və nüfuzlu universiteti ilə əməkdaşlıq genişlənir



Naxçıvan Dövlət Universitetinin müasir dünya təhsilinə inteqrasiya istiqamətində uğurlar qazanmasında beynəlxalq əlaqələr mühüm rol oynayır. Bu ali təhsil ocağı dünyanın 130-dan çox ölkəsi ilə əməkdaşlıq edir. Beynəlxalq əlaqələr sistemində isə Türkiyə Respublikasının ali təhsil ocaqları müstəsna yer tutur. Qardaş ölkənin 80-dən çox ali təhsil ocağı ilə geniş əməkdaşlıq edən Naxçıvan Dövlət Universitetinin nümayəndə heyəti ali təhsil ocağında yeni qurulacaq Texnopark layihəsində təcrübə əldə etmək məqsədilə 2021-ci ilin iyul ayında Türkiyənin bir sıra universitetlərində, Türkiyə Ali Təhsil Şurasında olub və əməkdaşlıq müqavilələri imzalanıb.

Bu günlərdə isə Ankara Universitetinin rektoru, professor Necdət Ünüvar, Qazi Universitetinin rektoru, professor doktor Musa Yıldız, İstanbul Texnik Universitetinin rektoru, professor İsmayıl Koyuncu, həmin universitetin prorektoru, professor Lütfiyə Durak Ata, Türk Musiqisi Dövlət Konservatoriyasının müdiri, professor Ali Tüfekçi, Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil müşaviri Nəcibə Nəsibova Naxçıvan Dövlət Universitetində olublar. Səfər çərçivəsində Ankara və İstanbul Texnik universitetləri ilə əməkdaşlıq perspektivləri müzakirə edilərək universitetlərarası əməkdaşlıq protokolu imzalanıb. Yeni əməkdaşlığın təməli qoyulan universitetlər sırasına Türkiyənin milli ali sistemində özünəməxsus yeri olan Qazi Universiteti də daxildir.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev ilə Qazi Universitetinin rektoru, professor doktor Musa Yıldızın iki universitet arasında birgə əməkdaşlığa dair imzaladıqları müqavilədə "Erasmus+" çərçivəsində müəllim və tələbələrin mobilliyi, Mövlana proqramı layihəsinin yenilənməsi, Biotexnologiyalar, İncəsənət ixtisasları sahəsində əməkdaşlıq, birgə konfransların, simpozium və forumların keçirilməsi, ortaq nəşrlər öz əksini tapıb.

Bu münasibətlə keçirilən görüşdə doktorantura proqramları, sinxron tərcümə ilə bağlı məsələlər müzakirə olunub. Elmi-tədqiqat sahələrində ortaq araşdırmalar, mədəniyyət, incəsənət və sair sahələrdə ortaq fəaliyyət barədə razılığa gəlinib. Müqavilədə bakalavr səviyyəsində fizika, rəsm, ingilis dili ixtisasları üzrə ikili diplom layihələri, həmçinin Qazi Universitetində xarici dili tədris edən müəllimlərin Naxçıvan Dövlət Universitetində tədrisə yönləndirilməsi, tibb sahəsində birgə təlim, tədris və tədqiqatın həyata keçirilməsi, rezidentura tədrisinə dəstək məsələləri öz əksini tapıb. İmzalanmış müqaviləyə görə tərəflərin üzərinə düşən öhdəliklər müzakirə edilib, universitetlərarası əməkdaşlıq sahələri haqqında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, əsası 1926-cı ildə qoyulmuş və hazırda 40 mindən artıq tələbəsi olan Qazi Universitetində müxtəlif istiqamətlərdə kadr hazırlığı həyata keçirilir. Tədqiqat universiteti kimi burada çoxsaylı elmi layihələr reallaşdırılır.

## Tələbələr nazirlikdə təcrübədə olublar

*Naxçıvan Dövlət Universitetinin tələbələri Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyində təcrübədə olublar.*



Kənd Təsərrüfatı naziri Bəhruz Bayramov təcrübəçi tələbələrlə görüşdə qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarının icrası çərçivəsində tələbələrlə keçirilən görüş, onların bir mütəxəssis kimi hazırlanmasında atılan addımlardan biridir. Nazir artıq bu sahə üzrə uzun illərin təcrübəsini qazanan muxtar respublika kənd təsərrüfatının hazırda Naxçıvan üçün öncül sahələr sırasında olduğunu diqqətə çatdırıb.

Universitetin rektoru Elbrus İsayev bildirib ki, nazirliyin təşəbbüsü ilə təşkil edilən görüşün məqsədi təcrübələrin və dərslərin səmərəli keçirilməsinə dəstək olmaqdır. Diqqətə çatdırılıb ki, universitetin torpaqşünaslıq və aqronomiya sahəsində təcrübə bazaları, laboratoriyaları, ixtisaslaşmış peşəkar mütəxəssisləri mövcuddur. Rektor tələbələrin bunlardan səmərəli istifadə etməklə təcrübələrinin yekununda nazirliyin əməkdaşları ilə birgə layihələr, startaplar hazırlamaları barədə təklif və tövsiyələrini çatdırıb.

Sonra tələbələr nazirliyin kitabxanası ilə tanış olublar.

Tədbirdə nazirliyin Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri laboratoriyasında aparılan analizlər haqqında da tələbələrə məlumat verilib.

Toxum bankı, bitki dərmanları ilə tanışlıqdan sonra kənd təsərrüfatı texnikalarına baxış keçirilib.

Sonda tələbələr əyani formada əkin sahələrinin gübrələnmə, dırmıqlanma və dərmanlanma prosesinin şahidi olublar.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Rayonların tarixinin yazılması yekun mərhələdədir



*AMEA Naxçıvan Bölməsində bölmənin fəaliyyəti və qarşıda duran vəzifələrlə bağlı 21 sentyabr 2021-ci ildə keçirilən müşavirədə verilən tapşırıqlardan irəli gələn işlərin icra vəziyyəti müzakirə olunub.*

Bununla əlaqədar keçirilən iclasda bölmənin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçıvanın hərtərəfli və daha dərindən öyrənilməsi məqsədilə verdiyi tapşırıqların icrası üçün AMEA Naxçıvan Bölməsi və hər bir elmi-tədqiqat müəssisəsinin fəaliyyəti ilə bağlı Tədbirlər planları hazırlanaraq təsdiq olunub. Qarşıya qoyulan məqsədlərin müvəffəq nəticələri üçün işçi qrupları yaradılıb."Şərur rayonunun tarixi", "Babək rayonunun tarixi", "Ordubad rayonunun tarixi", "Culfa rayonunun tarixi", "Şahbuz rayonunun tarixi", "Kəngərli rayonunun tarixi", "Sədərək rayonunun tarixi", "Naxçıvan etnoqrafiyası" (iki cilddə), "Naxçıvan Muxtar Respublikasının xalq deyimləri", "Naxçıvan uşaq folkloru" adlı kitablar nəşrə hazırlanır.

Rayonların tarixinin hazırlanması barədə məlumat verən Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli bildirib ki, "Şərur rayonunun tarixi" və "Kəngərli rayonunun tarixi" kitablarının siqnal nüsxələri artıq çap olunmuşdur. "Şahbuz rayonunun tarixi"nin yazılma prosesi yekunlaşmış, Babək, Ordubad, Culfa, Sədərək rayonları haqqında kitablar isə yekunlaşmaq üzrədir. Sonuncular əldə olunan yeni materiallar əlavə olunduqdan sonra redaktə ediləcək. İkicildlik "Naxçıvan etnoqrafiyası" kitabı isə yazılma mərhələsindədir.

Professor söyləyib ki, kitablar hazırlanarkən həyata keçirilən arxeoloji ekspedisiyaların nəticələrindən, arxiv və muzey materiallarından, institutda aparılan tədqiqatların nəticələrindən və başqa mənbələrdən istifadə olunub.

İclasda kitabların əhatə etdiyi mövzuların tam əhatəli şərhi, tədqiqat qruplarının apardıqları araşdırmaların nəticələri, fakt və məlumatların dəqiqliyi kimi məsələlər müzakirə olunub.

Akademik İsmayıl Hacıyev əsərlərin yüksək səviyyədə tərtibi məqsədilə təklif və tövsiyələr verib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Dram müsabiqəsinin qalibləri mükafatlandırılıb

Dünən "Məktəblilərin dram müsabiqəsi"nin yekununa həsr olunmuş tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov muxtar respublikada təhsilə göstərilən dövlət qayğısından danışıb. Qeyd olunub ki, yaradılan şərait şagirdlərin mənəvi aləminin zənginləşməsi, dünyagörüşünün və bilik dairəsinin genişlənməsi, məntiqi təfəkkürünün, idraki bacarıqlarının inkişafında mühüm amildir. Bu istiqamətdə keçirilən tədbirlərdən biri də "Məktəblilərin dram müsabiqəsi"dir. 2021-ci il dekabrın 13-dən başlayaraq 3 mərhələdə keçirilən müsabiqədə 183 məktəb üzrə 1200-dən artıq şagird iştirak edib. Əsərlərdən səhnələşdirilən parçalar münsiflər heyəti tərəfindən qiymətləndirilib.



Təhsil naziri ümumtəhsil məktəblərində və məktəbdənkənar təhsil müəssisələrində şagirdlərin istedad və bacarıqlarının üzə çıxarılması üçün yaradılan əlverişli şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natavan Qədimova çıxışında qeyd edib ki, bu gün muxtar respublikada teatrların fəaliyyətinə hərtərəfli dövlət qayğısı göstərilir. Son illər muxtar respublikada teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, teatr binaları yenidən qurulub və ya əsaslı təmir olunaraq istifadəyə verilib. Hazırda muxtar respublikada fəaliyyət göstərən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı və digər teatrlar tamaşaçıların asudə vaxtlarının mənalı təşkilində əhəmiyyətli rol oynayır.

Mədəniyyət naziri bildirib ki, "Məktəblilərin dram müsabiqəsi" bundan sonra da şagirdlərin kitab mütaliəsinə marağının artmasına, onların bədii-estetik zövqünün və bədii qiraət bacarığının formalaşmasına, nəhayət, muxtar diyarımızda teatr sənətinə olan marağın güclənməsinə dəyərli töhfə olacaqdır.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Əliyev isə çıxışında şagirdlər arasında keçirilən "Məktəblilərin dram müsabiqəsi"nin muxtar respublikamızda ədəbiyyata göstərilən diqqətin, qayğının bariz ifadəsi olduğunu vurğulayıb.

Sonda qaliblərə təşkilatçılar tərəfindən plaket və oxunması zəruri olan kitablar hədiyyə olunub.

"Məktəblilərin dram müsabiqəsi"ndə Ordubad rayon Vənənd kənd tam orta məktəbinin şagirdləri hazırladıqları Cəfər Cabbarlının "Solğun çiçəklər", Naxçıvan Qızlar Liseyinin şagirdləri səhnələşdirdikləri Mirzə Fətəli Axundzadənin "Heykayəti Müsyo Jordan və Dərviş Məstəli şah" əsərləri ilə III, Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin şagirdləri Moris Meterlinkin "Göy quş" əsəri ilə II yerə layiq görülüb. Kəngərli rayon Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin şagirdləri isə Mirzə Fətəli Axundzadənin "Sərgüzəşti-vəziri-xani Lənkəran" əsəri ilə müsabiqənin qalibi elan olunublar. Həmçinin müsabiqə müddətində aktyorluq bacarığı ilə fərqlənən 8 şagird də mükafatlandırılıb.

Sonra "Məktəblilərin dram müsabiqəsi"nin seçim mərhələləri ilə bağlı hazırlanan videoçarx təqdim edilib. Tədbirin sonunda müsabiqənin qalibi olan məktəblilərin hazırladıqları səhnələr nümayiş olunub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Təhsildə Keyfiyyət Təminatı Agentliyi "Naxçıvan" Universitetində təlim keçir



"Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarında təhsil və təlim müəssisələrində, təhsil fəaliyyəti ilə məşğul olan elmi müəssisələrdə keyfiyyətin daxili təminatı sisteminin yaradılması, keyfiyyətin qiymətləndirilməsi meyarlarının mövcud olması üçün "Naxçıvan" Universitetində daxili keyfiyyət təminatı sisteminin qurulması üçün Keyfiyyət Təminatı Mərkəzi yaradılıb. Rektorluğun 15 sentyabr 2021-ci il tarixli əmri ilə Tədris Metodik Mərkəzin Qiymətləndirmə və keyfiyyətə nəzarət bölməsi, həmçinin "ERASMUS+EQAC" layihəsi çərçivəsində yaradılan mərkəz ləğv olunaraq, onların əsasında universitetdə Keyfiyyət Təminatı Mərkəzi yaradılıb.

Keyfiyyət Təminatı Mərkəzi "Naxçıvan" Universitetinin keyfiyyət təminatına və inkişafına yönəlmiş strategiyaların, siyasətlərin və prosedurların formalaşdırılmasına, nəzərdən keçirilməsinə və icrasına, eləcə də keyfiyyət mədəniyyətinin təmin olunmasına dəstəyi həyata keçirir.

Bu münasibətlə Təhsildə Keyfiyyət Təminatı Agentliyi ilə "Naxçıvan" Universiteti arasında təlim xidmətlərinin göstərilməsinə dair əməkdaşlıq müqaviləsi imzalanıb. Müqaviləyə əsasən TKTA-nın peşəkar eksperti, Təlim və metodologiya şöbəsinin müdiri Asiman İlyasov tərəfindən 6 aprel tarixdən ali təhsil ocağının əməkdaşlarına Xarici Keyfiyyət Təminatına dair 3 günlük təlimə başlanılıb.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

## Birgə taktiki təlim

*Naxçıvan Qarnizonu Qoşunlarının 2022-ci tədris ilinin uzlaşma planına əsasən "Dövlət sərhədinin pozulması hallarının qarşısının alınması üzrə sərhəd axtarışının təşkili" mövzusunda birgə taktiki təlim keçirilib.*

Təlimin ssenarisinə əsasən sərhədpozucular dövlət sərhədini pozaraq Naxçıvan Muxtar Respublikasının ərazisinə keçməyə cəhd edirlər. Sərhəd naryadından daxil olmuş siqnala əsasən sərhəd bölmələrinin şəxsi heyəti "Silaha" komandası ilə qaldırılır. "Həyəcan qrupu" hadisə baş vermiş əraziyə, "Hərbi pərdələyici dəstə" sərhəd naryadları isə dövlət sərhədinin pozulduğu istiqamətdə təyin olunmuş hüdudlar boyu ərazinin qapadılması üçün hərəkət edirlər. Dövlət sərhədinin pozulması əlamətləri aşkar edildikdən sonra sərhədin mühafizəsi gücləndirilməklə aidiyyəti qurumların müvafiq bölmələri xəbərdar edilir. Sərhəd komendantlığının mobil qrupları və sərhəd zastavalarından cəlb olunmuş axtarış qrupları tərəfindən dövlət sərhədinin pozulduğu istiqamətdə axtarış tədbirləri həyata keçirilir.



Əməliyyat-axtarış tədbirlərinin daha effektli həyata keçirilməsi üçün əməliyyat rayonunda birgə qərargah yaradılır. Axtarış rayonunda sərhədpozucuların dərinliyə sızmasına imkan verməmək məqsədilə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının bağlama qrupları ilə birgə Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələrindən və Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının xüsusi təyinatlı dəstəsindən ayrılmış qruplar da cəlb edilməklə təyin olunmuş hüdudlar boyu ərazi qapadılır. Birgə fəaliyyət zamanı təcrid edilmiş ərazilərdəki yaşayış məntəqələrində naməlum şəxslər haqqında məlumatların toplanılması məqsədilə əraziyə yaxın yollarda reydlər keçirilir, əməliyyat rayonunun giriş-çıxış yollarında nəzarət məntəqəsi xidməti təşkil olunur.

Aparılmış uğurlu axtarış tədbirləri nəticəsində aşkar olunmuş sərhədpozucular mühasirəyə alınaraq yaxalanır və sərhəd axtarışı ərazisində fəaliyyət dayandırılaraq rejimə qoyulmuş məhdudiyyətlər aradan qaldırılır.

Təlimin yekununda "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası komandirinin birinci müavini-qərargah rəisi, polkovnik Muxtar Həmzəyev birgə fəaliyyət nəticəsində təlimdə qarşıya qoyulmuş məqsədlərə nail olunduğunu bildirib.

**Kənan CƏLİLOV**

# Culfalılar da yaz qayğıları ilə yaşayırlar

***Yazın gəlişi ilə külli-aləm dəyişməkdə, gözəlləşməkdədir. Meşələrdə, dağlarda kövrək bənövşələrin, al-əlvan çiçəklərin təravəti, quşların cəh-cəhi, aydın səmadan şəfəqsaçan Günəşin isti nəfəsi onları xoş duyğulara kökləyir. Bu fəslin xoş ovqatı onları yaz qayğılarına səsləyir. Əməksevər insanlar da yaşadığı kəndlərdə qüvvələrini səfərbər edir, yurdumuzda məhsul bolluğunun yaranması, öz gün-güzəranlarının daha da yaxşılaşması üçün səylə çalışırlar.***



Fevralın 25-də Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Ali Məclisin Sədri cənab Vasif Talıbovun verdiyi tapşırıqlar, səsləndirdiyi fikirlər bir daha sübut edir ki, diyarımızda bu sahədə atılan müxtəlif istiqamətli addımlar böyük canlanmaya gətirib çıxarıb, həyata keçirilən genişmiqyaslı tədbirlər real nəticələr verib. Həmin reallığın nəticəsidir ki, bu gün muxtar diyarımızda kənd təsərrüfatı məhsullarının bolluğuna nail olunub. Bu isə, nəticə etibarilə, süfrələrimizin zənginliyi deməkdir.

İlin bu vaxtında diyarımızın bütün kənd yaşayış məntəqələrinin əkin sahələrində zəhmət adamları əlverişli hava şəraitindən səmərəli istifadə edir, aqrotexniki tədbirlər həyata keçirir, əkinlərin ziyanvericilərdən qorunması üçün sahələrə gübrə verilir, zəmilər alaqlardan təmizlənir.

Culfa rayonunun sakinləri də məhsul bolluğu yaradılmasında fəallıq göstərirlər. Taxılçılıq muxtar respublikada üstünlük təşkil edən sahədir. Rayonun münbit torpaqları da taxılçılıq üçün xeyli əlverişlidir. Bölgədə zəngin taxılçılıq ənənələrinin yaradılması və yaşadılması da davamlı xarakter alan dövlət qayğısı ilə bağlıdır. Cari ildə də bu sahəyə maraq göstərənlər çoxdur. Belə ki, 250 hektardan çox sahədə şum qaldıran rayonun torpaq mülkiyyətçiləri indiyədək həmin sahələrin 190 hektarında yazlıq əkin aparıblar. Əkilən sahənin 90 hektara yaxını arpadır. Əkin sahələrində məhsuldar toxum sortlarından istifadə edən mülkiyyətçilər alın təri axıtdıqları şum qaldırılmış sahələrin 1 hektardan çoxunda kartof, 1 hektardan çoxunda sarımsaq, 6,5 hektarda qarğıdalı, 5 hektara yaxın sahədə soğan, 5 hektarda noxud, 30 hektar sahədə isə bostan bitkiləri əkiblər.

Bu gün sahələrdə həm də suvarma işləri görülür, eyni zamanda payızda əkilmiş taxıl sahələrində alaq otlarına qarşı kimyəvi mübarizə tədbirləri aparılır. Qeyd edək ki, bölgədə heyvandarlığı inkişaf etdirmək məqsədilə həyata keçirilən tədbirlər cari ildə də davam etdirilir. Qüvvəli yem ehtiyatı yaratmaq üçün torpaq mülkiyyətçiləri 60 hektar sahədə çoxillik əkmələr də aparıblar. Rayon İcra Hakimiyyətindən aldığımız məlumata əsasən deyə bilərik ki, cari təsərrüfat ilində əkinçilik təsərrüfatlarında bu günədək görülən işlər culfalı torpaq mülkiyyətçilərinə xeyli gəlir gətirəcək. Kırna kəndində noxud əkini həyata keçirən təcrübəli təsərrüfat adamı Həsən Məmmədov deyir ki, noxudun əkilməsinin tam zamanıdır. Bu bitki istilik və quraqlığa davamlılığı ilə yanaşı, yüksək şaxtaya dözümlülüyü ilə də seçilir. Ona görə də, hətta qar yağsa belə, bunun bitkiyə heç bir mənfi təsiri yoxdur.

Rayonun iri yaşayış məntəqələrindən biri olan Yaycıda da təsərrüfat işləri günü-gündən sürətlənir, əkin sahələrində canlanma günbəgün artır. Kəndin zəhmətkeş təsərrüfat adamları daha çox gəlirgətirən kartof, soğan və sarımsaq əkini aparırlar. Ötən təsərrüfat ilində bol məhsul əldə edən təsərrüfat adamı Əfqan Quliyev bu il də soğan əkininə üstünlük verib. Qeyd edək ki, muxtar respublikamızda bu kənddə yetişdirilən soğan adla deyilir. Əvvəllər bu qiymətli tərəvəz bitkisi daha çox həyətyanı sahələrdə əkilir, istehlak məqsədi daşıyırdı. Yaycının təsərrüfat adamları muxtar respublikamızda tərəvəzçiliyin inkişafına göstərilən dövlət qayğısından bəhrələnərək pay torpaqlarında da soğan əkinini genişləndiriblər.

Yaz əkinlərində əsas yerlərdən birini qarğıdalı tutur. Bu məhsuldar bitkinin əkilməsinə təsərrüfat sahibləri tərəfindən maraq ildən-ilə artır. Qeyd edək ki, bu il rayonun Camaldın, Gülüstan, Ərəzin və Bənəniyar kəndlərində 6,5 hektar ərazidə qarğıdalı əkini aparılıb. Əkin sahəsinin 2 hektarını qarğıdalı üçün ayıran təsərrüfatçı Qasım Babazadə deyir ki, qarğıdalı əkinlərinin həyata keçirilməsində və əkinlərə aqrotexniki qulluğun göstərilməsində dövlət fermerlərə hərtərəfli dəstək göstərir. Uzunmüddətli güzəştli kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası ilə təminat təsərrüfat sahiblərinin əkinçiliyə marağını daha da artırıb.

Yaz əkininin mütəşəkkil şəkildə keçirilməsi, təbii ki, gələcək məhsulun bolluğundan xəbər verir. Bunu culfalı torpaq mülkiyyətçiləri dərindən dərk edirlər. Onların lazımi texnikalar, ehtiyat hissələri, gübrə və əkin üçün lazımi ehtiyaclarla təmin olunması da belə deməyə əsas verir ki, 2022-ci il də rayonun torpaq mülkiyyətçiləri üçün uğurla başa çatacaq.

✍ **Gülcamal TAHİROVA**

# Növbəti əmək yarmarkası təşkil olunub



*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən növbəti əmək yarmarkası Sədərək rayonunda keçirilib.*

Tədbirdə çıxış edənlər bildiriblər ki, əmək yarmarkaları işaxtaran vətəndaşların işlə təmin olunması istiqamətində mühüm əhəmiyyət kəsb edən aktiv məşğulluq tədbirlərindən hesab olunur. Yarmarkaların keçirilməsində əsas məqsəd işəgötürənlərin qısa vaxt ərzində müvafiq tələblərə cavab verə bilən kadr seçiminə, işaxtaran vətəndaşların isə işlə təmin olunmalarına köməklik göstərilməsini təşkil etməkdir. Bildirilib ki, əmək yarmarkalarında müəssisələrdə olan vakant iş yerləri işaxtaran vətəndaşlara təklif olunur və onlara seçdikləri iş yerlərinə göndərişlər verilir, peşə və ixtisası olmayan, yaxud peşə bacarığına uyğun iş tapılmasında çətinlik yaranan şəxslər peşə hazırlığına cəlb olunurlar.

Qeyd edək ki, hərbi xidmətdən yeni tərxis olunmuş gənclərin də iştirak etdiyi əmək yarmarkasında işaxtaranlara, ümumilikdə, 9 müəssisədən 73 boş iş yeri təqdim edilib. Nəticədə, 6 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 12 nəfərin özünüməşğulluq proqramına, 4 nəfərin isə peşə hazırlığı kurslarına cəlb edilməsi üçün qeydiyyatı aparılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Aktivlərin verilməsi davam etdirilir

Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsi, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyi publik hüquqi şəxs və Azərbaycan Banklar Assosiasiyası arasında imzalanmış memoranduma uyğun olaraq icra edilən özünüməşğulluq proqramının prioritet məqsədi muxtar respublikada həssas əhali qruplarının (sağlamlıq imkanları məhdud şəxslərin, aztəminatlı ailələrin, şəhid ailələrinin, məcburi köçkünlərin, işsiz və işaxtaran şəxslərin və sair) məşğulluğunun artırılması və kiçik sahibkarlığa çıxışının dəstəklənməsində əlavə imkanlar yaratmaqdır. Proqramın icrası məqsədilə muxtar respublikada fəaliyyət göstərən bank və bank filialları proqrama cəlb olunmuş və onların aktiv iştirakı təmin edilmişdir.

“Rabitəbank” Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan şöbəsi tərəfindən Şərur rayonunun Kərimbəyli kənd sakini Maisə Paşayevaya, “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti tərəfindən Culfa rayonunun Saltaq kənd sakini Vadim Abbasova heyvandarlıq təsərrüfatı yaratmaq məqsədilə iribuynuzlular təqdim edilmişdir.

Qeyd edək ki, indiyədək “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti tərəfindən 6, “Kapital Bank” Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialı tərəfindən 6, “Rabitəbank” Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan şöbəsi tərəfindən 1 nəfər olmaqla, ümumilikdə, aktivlə təmin edilən aztəminatlı ailələrin sayı 13-ə çatdırılmışdır.

***Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsi***

*Mütəxəssis sözü*

# Yağlı qarğıdalı ən qiymətli ərzaq və yem bitkisidir



Dünya əhalisinin durmadan artmaqda olan ərzaq tələbatının ödənilməsində, eləcə də heyvandarlığın və quşçuluğun yem bazasının gücləndirilməsində, insanların qidalanmasında və sağlamlığında bitkiçilik məhsullarının rolu böyükdür. Dənli bitkilər bu məhsullar içərisində qida mənbəyi, sənaye üçün qiymətli xammal kimi xüsusi yer tutur. Dənli bitkilər içərisində qarğıdalı ən qiymətli ərzaq və yem bitkisidir. Müəyyən edilib ki, ərzaq və texniki məqsədlə bu bitkidən 146 növ məmulatın hazırlanmasında istifadə olunur. Qarğıdalının dənindən un, yarma, konserv, nişasta, etil spirti, pivə, deksterin, qlükoza, saxaroza, sirop, yağ, qlütamin turşusu, mis elementi, E və V vitaminləri alınır. Gövdə, yarpaq və qıçasından kağız, linoleum, viskoz, süni probka, plastmas, fəallaşdırılmış kömür, yuxugətirici dərman və sair hazırlanır. Qarğıdalı həm xalq təbabətində, həm də rəsmi təbabətdə xüsusi rola malikdir. Aparılmış təcrübələrlə sübut olunub ki, qarğıdalı yağı istifadə edən yaşlı insanların orqanizmində cavanlaşma prosesi gedir. İqtisadi cəhətdən də çox faydalıdır.

Bu bitkinin əkilib-becərilməsindən danışarkən qeyd etməliyik ki, qarğıdalı istiliksevən qısa gün bitkisidir. Dənləri + 8-10$^0$C temperaturda cücərməyə başlayır və çıxışların alınması üçün 10-12$^0$C temperatur tələb olunur. Qarğıdalı toxumunun cücərməsi üçün dənin kütləsinin 35-40 faizi qədər rütubət lazımdır. Optimal temperatur 20-25$^0$C-dir ki, bu halda cücərtilər 5-6 günə əmələ gəlir və çox yaxşı inkişaf edir. Cücərtilərin ilk inkişafı üçün hərarətin nisbətən aşağı olması kifayətdir, sonra isə tələbat artır. 12$^0$C-dən aşağı temperaturda cücərtilər inkişafı dayanır. Cücərtilər müvəqqəti olaraq 2-3$^0$C şaxtaya dözür. Kök kütləsi yerləşən torpaq qatında hərarət 24$^0$C olduqda kök sistemi daha yaxşı fəaliyyət göstərir. İstiliksevən bitki kimi tezyetişən sort və hibridlər üçün 21-24$^0$C, orta və gec yetişənlər üçün isə 26-30$^0$C fəal temperatur tələb olunur. Maksimal temperatur 40$^0$C-dir.

Bu bitki sələflərə çox tələbkar deyil. Bioloji xüsusiyyətlərinə görə qarğıdalı bir sahədə dəyişmədən becərilməyə meyilli olan bitkilərə aiddir. Qarğıdalı üçün ən yaxşı sələflər payızlıq taxıllar, birillik dənli-paxlalı bitkilər, kartof və sairdir.

Təkrar əkin bitkisi kimi qarğıdalını payızlıq buğda və arpadan sonra əkib, eyni sahədən həmin ildə iki dəfə məhsul götürmək mümkündür. Qarğıdalı yaxşı gübrələnmiş torpaqlarda və yüksək aqrotexniki qulluq şəraitində eyni tarlada bir neçə il təkrar əkildikdə belə, yüksək məhsul verə, bu cür təkrar əkin aparıldıqda tarlada iki dəfə dən və silos məhsulu yetişdirilə bilər.



Bitkinin payızlıq buğda və arpa əkinindən sonra təkrar əkinləri aparıldıqda vahid sahədən bir il ərzində iki dəfə məhsul götürülməsi mümkün olur. Qarğıdalı güclü kök sistemi əmələ gətirdiyindən torpaqda dərin şum aparılmasına və qida maddələrinə tələbkar bitkidir. Bunun üçün vegetasiya dövründə normal böyüyüb inkişaf etməsi və yüksək məhsul verməsi üçün bu bitki üzvi və mineral gübrələrlə təmin edilməlidir. Bitkilərdə gedən proseslərin tənzimlənməsində azot, fosfor və kalium elementlərinin xüsusi əhəmiyyəti vardır. Qarğıdalı üçün gübrə normaları hesablanan zaman göstərilən məhsulun miqdarı nəzərə alınmalıdır. Bu gün qarğıdalı sahəsindən bol və keyfiyyətli məhsul almaq üçün qarğıdalı əkini sahəsinin hər bir hektarına təsiredici maddə hesabı ilə üzvi gübrə verilməsi vacibdir.

Toxumun keyfiyyəti, səpin müddəti, norması və basdırılma dərinliyinə gəldikdə normal və sağlam cücərtilər almaq üçün eyniölçülü, 1000 ədəd dənin kütləsi çox olan, laboratoriya cücərmə qabiliyyəti 100 faizə yaxın olan və birinci sinfin tələblərinə cavab verən 1-ci nəsil (F1) toxumlar səpilməlidir.

Qarğıdalı dəninin məhsuldarlığına təsir edən əsas amil onun səpin müddətidir. Səpin nə qədər erkən əkin müddətində aparılarsa, çiçəkləmə dövründə torpaqda nəmlik bir o qədər çox olur, tozlanma dövründə nə qədər çox əlverişli temperatur rejimi yaranarsa, dənin məhsuldarlığı bir o qədər yüksəlir.

Muxtar respublikanın aran rayonlarında optimal səpin müddəti aprel ayının birinci ongünlüyü, dağlıq və dağətəyi rayonlarda isə ikinci ongünlüyü hesab olunur. Qarğıdalı dən üçün becərildikdə səpin zamanı cərgəaraları 70 santimetr, bitkilərarası məsafə isə 18-20 santimetr götürülür. Bu əkin sxemində bir hektar sahədə 71-79 min ədəd bitki yerləşir. Silos və yaşıl yem kimi becərildikdə isə cərgəarası məsafə 70 santimetr, bitkilərarası məsafə isə 12-14 santimetr götürülür. Bu əkin sxemində isə bir hektar sahədə 102-119 min ədəd bitki sayı ola bilər.

Alaq otlarına qarşı mübarizə tədbirləri də vaxtlı-vaxtında aparılmalıdır. Hazırda alaq otlarına qarşı kimyəvi mübarizədə bir sıra herbisidlərdən istifadə olunur. Herbisidlər bir tərəfdən əl əməyini azaldır, digər tərəfdən isə mədəni bitkilərin məhsuldarlığını xeyli artırır.

Qarğıdalı bitkisinin əsas xəstəlikləri qovuqlu sürmə, tozlu sürmə və fuzariozdur. Qarğıdalı əkini sahələrində xəstəliklərin yaranmaması üçün əkilən toxumlar əgər dərmanlı ( xəstəlik və zərərvericilərə qarşı) deyilsə səpinqabağı toxum (1,5 kiloqram/1000 kiloqram) hesabı ilə “Rubin 2DS”, “Tubazol” və ya “Saneb M-22” preparatlarından biri ilə dərmanlanmalıdır.

Qarğıdalı bitkisinə, əsasən, məftil qurdu, danadişi, pambıq sovkası, gövdə kəpənəyi, payızlıq əkin sovkası, mənənələr ziyan vurur. Mübarizə məqsədilə səpin zamanı toxumlar dərmanlanmalı və bitkilər yüksək aqrotexniki qaydada becərilməlidir.

Qarğıdalı vegetasiya müddətində çox su tələb edən bitkidir. Hava şəraitindən asılı olaraq qarğıdalı vegetasiya müddətində 3-4 dəfə suvarılmalıdır.

Muxtar respublikamız qarğıdalı bitkisinin becərilməsi, ondan yüksək və keyfiyyətli məhsulun alınması üçün əlverişli torpaq-iqlim şəraitinə malikdir.

Qeyd olunmalıdır ki, diyarımızda əkin vaxtı məhsuldar toxuma üstünlük verilir, tələb olunan gübrələrdən aqrotexniki qaydalar əsasında istifadə edilir. Bu baxımdan “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə muxtar respublikaya kifayət qədər qarışıq tərkibli və karbamid gübrələri, “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxs xəttilə toxumun keyfiyyət göstəricilərinə cavab verən torpaq-iqlim şəraitinə uyğun məhsuldar, tezyetişən, xəstəlik və ziyanvericilərə qarşı davamlı qarğıdalının yağlı sort və hibridləri gətirilərək satışı təşkil edilib. Bu sort və hibrid nümunələri bunlardır: “Dekalb-6808”, “Dekalb-60-50”, “Dekalb-64-92”, “KVS-55-81”, “Pioner-1241” və sair. Qarğıdalının bu çeşidləri mövcuddur və satışı davam edir. Bu sort və hibridlər bir neçə ildir ki, Akademik Həsən Əliyev adına “Araz” Elm-İstehsalat Birliyinin Yardımçı Təcrübə Təsərrüfatında sınaqdan keçirilib və yüksək nəticələr əldə olunub.

**Fikrət HƏSƏNOV**

***Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı nazirinin müavini, Akademik Həsən Əliyev adına “Araz” Elm-İstehsalat Birliyinin baş direktoru***

*Xalqımızın yaşayışı, bədii təfəkkürü sayəsində yaranan, onun həyat və məişətinin ayrılmaz hissəsinə çevrilən zəngin, tarixin bütün proseslərindən keçib gələn bu günümüzdə də öz təravətini və mahiyyətini itirməyən, milli dəyərlərimizdən sayılan yallılar xalqımızın yaratdığı, mayası, qayəsi saf olan bir sənət növüdür. Yallının Azərbaycan xalqının tarixində çox mühüm rolunu nəzərə alan ümummilli liderimiz Heydər Əliyev çıxışlarının birində demişdir:* ***"Yallılar bizim keçmişimiz, bu günümüz, gələcəyimizdir… Yallını qoruyub saxlayın. Bu, Naxçıvanın tacıdır".*** *Bu sözlərdə ulu öndərin xalq sənətinə böyük sevgisi, məhəbbəti açıq-aşkar duyulur. Çünki yallı Azərbaycan xalqının birlik rəmzi, milli xüsusiyyətlərimizin örnəyi, xalq hikmətinin parlaq ifadəsidir. Əzəmət və qəhrəmanlıq tərənnüm edən yallı melodiyalarını dinləyərkən və xoreoqrafik hərəkətlərini izləyərkən daxilimizdə Vətən məhəbbəti, xalq sevgisi kimi ülvi hisslərin bir daha coşmasını duyuruq.*



*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Naxçıvanın mənəvi emblemi

## YALLI

Elə doğma Naxçıvanımız da təkcə tarixi-memarlıq abidələri ilə deyil, həm də mədəniyyətimizin ən qədim nümunəsi olan folklor rəqsləri – yallıları ilə tanınır. Xüsusilə də Şərurun qədim tarixə və mədəniyyətə malik olması təkcə onun daş abidələri, arxeoloji maddi mədəniyyət nümunələri ilə ölçülmür. O həm də mədəniyyətimizin incisi və ən qədim növü sayılan yallıları ilə öyünür. Bu da onu deməyə əsas verir ki, Şərur yallıları milli xoreoqrafiya sənətimizin zəngin və qiymətli xəzinəsidir.

Biz də el şənliklərimizdə mühüm yer tutan, insanlara sevinc, şadlıq, əyləncə bəxş edən Naxçıvan yallısı haqqında Azərbaycan Respublikasının Əməkdar artisti, "Şərur" Xalq Yallı Ansamblının bədii rəhbəri Əfsər Novruzovla həmsöhbət olduq. Əfsər müəllim 24 ildir ki, bu sənət sahəsi ilə məşğuldur. Müsahibim dedi ki, yallı bizim keçmişimizi özündə yaşadan, onu gələcəyə aparan ən qiymətli xalq yaradıcılığı növüdür. Bu sənət növü şifahi şəkildə, yaddaşdan-yaddaşa köçürülərək yaşayıb, inkişaf edib və öz yaşamaq hüququnu məhz xalqın süzgəcindən keçirərək qazanıbdır. Yallılarda ifa olunan musiqi, oynanılan hər bir hərəkət özünəməxsus əhəmiyyət kəsb etməklə yanaşı, əcdadlarımızın yaşam tərzini, adət-ənənəsini, məişətini və bədii zövqünü özündə əks etdirir. Bu yallıların bir çoxu "Şərur" Xalq Yallı Ansamblı, "Nurani" və "Şərur qönçələri" yallı ansamblları tərəfindən respublikamızın paytaxtı Bakı şəhərində və eləcə də xarici ölkələrdə keçirilən bir sıra tədbirlərdə, folklor festivallarında ifa olunmuşdur. Şərurda kiçikdən-böyüyə elə bir adam tapa bilməzsən ki, yallı oynaya bilməsin. El arasında belə bir söz də var: "Yallı gedə bilmirsənsə, deməli, şərurlu deyilsən". Şərur rayonundakı mədəniyyət müəssisələrinin hamısında yallı qrupları var. Həmin qrupların repertuarları müxtəlif yallılarla tez-tez yeniləşir və bu yeniliklər rayonda keçirilən müxtəlif tədbirlərdə nümayiş etdirilir. Şərurda yallı qruplarının daim inkişaf edərək fəaliyyət göstərməsi burada yaşayan insanların əcdadlarının yaratdığı birlik və saflıq rəmzi olan yallılara sevgisinin təzahürüdür. Qürur duyuruq ki, yüzə yaxın yallının əksəriyyəti Şərurda el şənliklərində və toylarda oynanılır. Bu



reallıq dahi Üzeyir Hacıbəylinin "Yallının vətəni Şərurdur, yallı Şərurda doğulub" söyləməsi fikrinin gerçəkliyini bir daha sübut edir.

Həmsöhbətim bildirdi ki, Şərurun ən geniş tərkibli və uzun müddət keçdikləri təcrübə nəticəsində professional səviyyəyə yüksələn üç yallı kollektivi var. Şərur Rayon Mədəniyyət Sarayında fəaliyyət göstərən "Şərur" Xalq Yallı Ansamblı və uşaqlardan ibarət "Şərur qönçələri" Çərçiboğan kənd mədəniyyət evinin "Nurani" yallı ansamblı. Fərqli yaşa mənsub olan bu kollektivləri bir-birinin ardıcılı, yaradıcılıq baxımından isə davamçısı hesab etmək olar. "Nurani" ansamblında yallısevər yaşlı kişilər yenə qol-qola, əl-ələ tutaraq əvvəlki şövqlə yallı gedir və gənclərə də yallının ifa qaydalarını öyrədirlər. Bu gün "Nurani" Xalq Yallı Ansamblının repertuarında 20-yə qədər yallı oynanılır. Uşaqlardan və yeniyetmələrdən ibarət "Şərur qönçələri" ansamblı isə ilk dəfə 1974-cü ildə Şərur rayonunun Yengicə kənd mədəniyyət evində mahir yallı ifaçısı və bilicisi, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Səttar Əhmədovun təşəbbüsü ilə yaradılıb. "Şərur qönçələri" ansamblı Bakıda, Naxçıvanda və qardaş Türkiyədə keçirilən folklor festivallarında iştirak edib, diplom və mükafatlara layiq görülüb. 2000-ci ildə Türkiyənin Ankara şəhərində keçirilən 23 aprel – Milli Suverenlik və Uşaq Bayramı Günü münasibətilə keçirilən tədbirlərdə uğurlu çıxışlarına görə diplom və mükafatlara layiq görülən kollektivə mükafatları həmin vaxt Türkiyənin Prezidenti olmuş Süleyman Dəmirəl təqdim edib. 2010-cu ilin avqust ayında TÜRKSOY-un dəstəyi ilə keçirilən Türk ölkələri sənət günlərində də müvəffəqiyyət qazanan kollektiv təşkilatın diplom və mükafatına layiq görülüb. Naxçıvan şəhərində keçirilən Türkdilli Dövlət Başçılarının IX Zirvə Toplantısında milli yallılarımızı layiqincə nümayiş etdirən "Şərur qönçələri" ansamblının ifaları tədbir iştirakçılarının rəğbətini və alqışlarını qazanıb.

Əfsər müəllim deyir ki, yallılar xüsusi məna və məzmun daşıyır. Xalqımızın yaşam tərzini, adət-ənənəsini, mübarizliyini, qorxmazlığını, həmişə haqqa, ədalətə və sülhə can atmasını özündə yaşadıb. Elə götürək yallının ən qədim növlərindən biri olan "Qaladan-qalaya" rəqsini. Bu yallıda insanların döyüş əhvali-ruhiyyəsini, cəsarətini və mübarizliyini əks etdirən maraqlı səhnələr var. Musiqi sədalarına uyğun olaraq ifaçılar rəqsə ağır templə başlayırlar, sanki "döyüş meydanında düşmənlə üz-üzə gəliblər". Rəqsin sonrakı hissəsində isə hərəkət müəyyən qədər sürətlənir, "Cəngi"nin sədaları döyüş məqamının çatdığını bildirir. Tərəflər üz-üzə dayanırlar. Dəstə başçıları öz güclərini göstərirlər. Oyunun digər hissəsində isə yenə də "qılınca əl atılır". "Məğlub tərəf" qalib gəlmək əzmini göstərir. "Qan töküləcəyini", "düşmənçilik yarana biləcəyini" görən ağbirçək ana meydana gələrək yaylığı ilə döyüşün qarşısını alır. "Uzundərə" havasında dəstələr sülh və barış arzusunda olduqlarını öz ifa tərzləri ilə də göstərirlər.

Müsahibim deyir ki, xoreoqrafik məzmununa görə yallılar iki növə ayrılır: süjet və rəqs tipli oyunlar. Süjetli oyunlar müəyyən hadisəni təsvir etdiyinə görə teatrlaşmış xalq oyunlarına bənzəyir. Bu rəqslərdə zarafat, gülüş üstünlük təşkil etsə də, digər yallılarda ifa və yeriş elementləri diqqəti çəkir. Nə gizlədək, milli-mənəvi sərvətlərimizin qorunması sahəsində itirdiklərimiz də çox olub. Bu da ona görə baş verib ki, tariximizin müəyyən dövrlərində incəsənətin bu sahəsinə maraq xeyli azaldığından onun bir çox nümunələri unudulub. Ötən əsrin 70-ci illərindən isə milli folklor rəqslərinin tədqiqi və təbliği istiqamətində əsaslı və ardıcıl tədbirlərin həyata keçirilməsinə başlanılıb. "Hoynərə", "Dönə" kimi yallıların yenidən mədəni irsimizə qaytarılmasını buna misal göstərmək olar.

Əfsər Novruzovun sözlərinə görə, xalq əmanətini yaşatmaq məqsədilə kollektiv yaradıcılıq axtarışlarını bu gün də uğurla davam etdirir: "Kəndbəkənd, oba-aba gəzir, qədim rəqslərimizi, yallılarımızı toplayır, öyrənir, repertuarını daha da zənginləşdirir. Ömürlərinin qocalıq çağını yaşayan insanlarda bunlarla bağlı xeyli bilgilər var. Onların köməkliyi ilə unudulmaqda olan 4-5 yallı bərpa edilib. Hazırda isə repertuarımızda ifa tərzi ilə bir-birindən fərqlənən 50-dən çox yallı və rəqs vardır". Ansamblın 15-ə yaxın üzvü vardır. Onların bir çoxu öz istedad və qabiliyyətləri ilə ölkə miqyasında yaxşı tanınıblar. Bu gün isə "Şərur" Xalq Yallı Ansamblının fəaliyyəti üçün hər cür şərait yaradılıb, ansamblın ifasından ibarət kompakt disklər hazırlanıb. Yallılar ilk dəfə nota köçürülüb, onun əsasında "Naxçıvan-Şərur el yallıları" kitabı nəşr olunub. 2018-ci ilin 26 noyabr-1 dekabr tarixlərində Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin növbəti 13-cü sessiyasında qəbul edilən qərarla "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilib. Bu da onu göstərir ki, yallı sənəti Naxçıvanda qədimdən formalaşıb, inkişaf edir, təbliğ edilir. İnanırıq ki, "Şuşa ili"ndə, bu qədim şəhərimizin 270 illik yubiley tədbirləri çərçivəsində Qarabağımızın incisi, mədəniyyət beşiyi Şuşada Naxçıvan (Şərur) yallılarının da sədası eşidiləcək.

**Aytac CƏFƏRLİ**

## Naxçıvan Müəllimlər İnstitutu

### *fəlsəfə doktoru hazırlığı üzrə 2022-ci il üçün doktoranturaya və dissertanturaya qəbul elan edir*

Naxçıvan Müəllimlər İnstitutunda doktorant və dissertant hazırlığı üzrə 2022-ci il üçün qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 mart 2022-ci il tarixli 140 s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2022-ci il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları" əsasında aparılır.

| | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla* |
| | | | əyani | qiyabi | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə) | 3 | | 3 | 2 |
| 5803.01 | Müəllim hazırlığı və fəaliyyəti | 1 | | 1 | |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 1 | | 1 | 1 |
| 5808.01 | Sosial pedaqogika | | | | 1 |
| 6104.01 | Pedaqoji psixologiya | 1 | | 1 | |
| | **Cəmi:** | **6** | | **6** | **4** |

* Dissertant hazırlığı üzrə adambaşına maliyyələşmə nəzərdə tutulmadığı üçün dissertanturada hazırlıq ali təhsil müəssisələrinin öz əməkdaşları üçün həmin müəssisənin hesabına, digər şəxslər üçün isə ödənişli əsaslarla aparılır.

Doktoranturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Təhsil Nazirliyinin *portal.edu.az* saytına daxil olmalı, orada "Ali və orta ixtisas təhsil müəssisələrinin tələbə qəbulu və qeydiyyatı" xidmətini seçərək təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər. Son tarix 5 may 2022-ci ildir.

Fəlsəfə doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya sənəd verən iddiaçılar xarici dil imtahanında iştirak etmək üçün sənəd qəbulu bitdikdən sonra Dövlət İmtahan Mərkəzinin saytında şəxsi kabinet açaraq qeydiyyatdan keçməlidirlər. Xarici dildən imtahanların Dövlət İmtahan Mərkəzi tərəfindən 2022-ci ilin iyun ayında keçirilməsi planlaşdırılır. Xarici dil imtahanını müvəffəqiyyətlə vermiş şəxslər üçün Fəlsəfə fənni üzrə imtahan 1, 2, 5 sentyabr 2022-ci il tarixlərdə, ixtisas imtahanı 12,13 sentyabr 2022-ci il tarixlərdə keçiriləcəkdir.

Əlavə məlumat almaq üçün Naxçıvan Müəllimlər İnstitutunun Elmi hissəsinə müraciət etmək olar.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 2. Naxçıvan Müəllimlər İnstitutu***
***Elmi hissə (otaq № 208)***
***Əlaqə telefonları:(+994 36) 544 04 29***
***E-mail: elmihisse@nmi.edu.az***

## Culfa idmançıları ilə görüş



Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı və nazir müavini Məcid Seyidov Culfa Rayon Uşaq-Gənclər İdman Məktəbində məşq keçən cüdoçuların hazırlıq prosesi ilə tanış olublar. Nazir məşqçi-müəllim və idmançıların qayğıları ilə maraqlanıb, tövsiyə və fikirlərini diqqətə çatdırıb. Qeyd olunub ki, bədən tərbiyəsi və idman ölkəmizdə, eləcə də muxtar respublikada dövlətin diqqət və qayğısı ilə əhatə olunur. Naxçıvan Güləş Federasiyası tərəfindən görülən işlərin əhəmiyyətini vurğulayan nazir deyib ki, muxtar respublikanın bütün şəhər və rayonlarında federasiyanın bölmələri fəaliyyət göstərir. Yaradılan şərait sayəsində sərbəst güləş, yunan-Roma güləşi və cüdo üzrə, ümumilikdə, 66 qrupda məşqlər keçirilir, idmançıların yarışlarda iştirakı təmin olunur.

Çıxışının sonunda idmançılara uğurlar arzulayan nazir ardınca məşq prosesini izləyib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Uşaq liqalarında final qarşılaşmaları



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Naxçıvan Futbol Federasiyasının təşkilatçılığı ilə uşaq futbolu üzrə U-10, U-11, U-12, U-13 və U-14, eləcə də ölkənin ən kütləvi məktəbli futbol turniri olan AFFA "Coca-Cola Məktəbli Kuboku"nun mərhələ yarışları keçirilir.

Uzunoba Təlim-Məşq İdman Kompleksində olimpiya sistemi üzrə keçirilən çempionatda artıq finala yüksələn komandaların adları məlum olub. İki gün davam edəcək final görüşlərində ilk olaraq bu gün 3 oyun keçiriləcək. Əvvəlcə meydana U-12 liqasının finalçıları "Kəngərli" və "Araz-Naxçıvan" komandaları çıxacaq. Ardınca azarkeşlər U-14 liqasında "Araz-Naxçıvan" – UGİM (Şərur) görüşünə şahidlik edəcəklər. Günün son görüşü isə "Coca-Cola Məktəbli Kuboku"nun finalı olacaq. Həlledici qarşılaşmada "Şərur" və "Naxçıvan" komandaları üz-üzə gələcək.

Sabah oynanılacaq ilk qarşılaşmada UGİM (Şərur) və "Araz-Naxçıvan" (U-13) komandaları qalibi müəyyənləşdirməyə çalışacaqlar. U-11 liqasının finalında da məhz bu komandaların 11 yaşlı futbolçuları üz-üzə gələcək. U-10 liqasının həlledici qarşılaşması isə "Şərur" və "Araz-Naxçıvan" komandaları arasında oynanılacaq.

Qeyd edək ki, reqlamentə əsasən muxtar respublika üzrə qalib komandalar müvafiq liqaların final mərhələsinə vəsiqə əldə edəcək. Final mərhələləri Bakı şəhərində təşkil olunacaq.

**Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Yusifov Heydər Yusif oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 297